## Şamaxı şəhərindəki Cümə məscidi Dövlət tarix-memarlıq abidəsinin bərpası ilə əlaqədar tədbirlər haqqında Sərəncam

Azərbaycan xalqının tarixi-mədəniyyət abidələrindən sayılan Şamaxı şəhərindəki Cümə məscidi 743-cü ildə inşa edilmiş və təkcə Cənubi Qafqazda deyil, həm də Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən biri kimi tanınaraq zəmanəmizə qədər gəlib çatmışdır. Memarlıq üslubu baxımından qədimliyi və orijinallığı ilə seçilən Cümə məscidi bütün dövrlərdə əhali arasında müqəddəs ibadət yeri kimi yüksək ehtiram və diqqətlə qorunub saxlanılmışdır. Şamaxıda 1859-cu və 1902-ci illərdə baş vermiş dəhşətli zəlzələlərdən ciddi ziyan çəkən məscid XX əsrin əvvəllərində yenidən bərpa edilmişdir. Lakin 1918-ci ildə Azərbaycanın əksər şəhərləri və bölgələrində, o cümlə**dən Şamaxıda erməni-daşnak quldur dəstələri tərəfindən törədilən soyqırım zamanı minlərlə** günahsız insan qətlə yetirilmiş, əhalinin sığınacaq tapdığı Cümə məscidi isə yandırılmışdır. Uzun illər dağıdılmış vəziyyətdə qalan bu tarixi abidə 1980-ci ildə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin tapşırığı ilə təmir olunmuşdur. Şamaxı şəhərindəki Cümə məscidi Dövlət tarix-memarlıq abidəsinin Azərbaycanın çoxəsrlik milli memarlıq irsi ənənələrinə uyğun şəkildə təmiri və bərpası məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasının 2009-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Şamaxı şəhərindəki Cümə məscidi Dövlət tarix-memarlıq abidəsinin bərpası üçün Şamaxı Rayon İcra Hakimiyyətinə 4,0 (dörd) milyon manat məbləğində vəsait ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci bəndində nəzərdə tutulmuş vəsaitin maliyyələşdirilməsini müəyyən olunmuş qaydada həyata keçirsin.

***İlham Əliyev***
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 24 dekabr 2009-cu il .*